## MÜKAFATLARI

***Görkəmli alim, pedaqoq və publisist, əsl ziyalı Şirməmməd Ağaməmməd Hüseynovun Azərbaycan jurnalistikasının inkişafında uzunmüddətli səmərəli fəaliyyəti yüksək qiymətləndirilmişdir. O, bir sıra mükafatlara layiq görülmüşdür.***

***"Nizami təqaüdü"*** 1948-ci ildə almışdır.

1966, 1972-ci illərdə Azərbaycan Jurnalistlər İttifaqı tərəfindən ən yaxşı, fəal, peşəkar jurnalistlərə təqdim olunan ***"Qızıl qələm" mükafatını*** almışdır.





1988-ci ildə ***"Əməkdar jurnalist"*** fəxri adını almışdır.

Şirməmməd Hüseynov 1991-ci ildə ***Zərdabi adına mükafata*** layiq görülmüşdür.



Jurnalistlər üçün təsis edilən ən vacib mükafatlardan biri olan "Zərdabi" mükafatı 1990-cı illərin sonlarında təsis olunub. Bu təsisatda məqsəd əsası 1875-ci ildə Həsən bəy Zərdabi tərəfindən qoyulmuş Azərbaycan mətbuatının maarifçilik ənənələrini davam etdirməyə, azad, demokratik və peşəkar mətbuatın formalaşması uğrunda yorulmadan mübarizə aparmağa, obyektiv və məsuliyyətli sözə üstünlük verməyə həvəsləndirməkdir.

Şirməmməd Hüseynov 1992-ci ildə ***Y. Məmmədəliyev adına mükafata,*** 1998-ci ildə isə ***Məhəmməd Əmin Rəsulzadə adına mükafata*** layiq görülmüşdür.



Azərbaycanda jurnalist kadrların hazırlanmasındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 16 dekabr 2014-cü il Sərəncamına əsasən ***"Şərəf" ordeni*** ilə təltif edilib.